# Elmlə şəxsiyyətin harmoniyasını yaşadan ziyalı



*Yusif YUSİFOV,*
*ADPU-nun Azərbaycan Dilçiliyi Kafedrasının dosenti, ümumi dilçilik üzrə baş elmi işçi*

*(Əvvəli ötən saylarımızda)*

Yüksək istedadlı folklorşünas Həsən Mirzəyevin təcnisin növləri-dodaqdəyməz təcnis, cığal təcnis, hərfi təcnis, hərfi qalın təcnis,hərfi cığal təcnis, qoşayarpaq təcnis kimi nümunələri diqqətə yönəltməsi bayatılar gəraylıbayatı, qarğışbayatı ilə bağlı açıqlamaları, qarğışbayatı bədduasının bəduanı xatırlatması maraq doğurur.

Mən aşıq üstün gələ,
Dost yada üstüngələ.
Səni elə yanasan,
Təpəndən tüstün gələ.

Tanıdım əla səni,
Tutubdur bəla səni.
Ocaqdan tonqal çatam,
Atam tonqala səni.

Həsən Mirzəyevi Dərələyəz aşıq sənətinin bilicisi adlandırmışlar.Onun özünün, bu barədə yazdığına baxaq:"Mən aspiranturaya, indiki doktoranturaya qəbula gələndə "Abbas və Gülyəz","Şah İsmayıl","Tahir və Zöhrə","Novruz və Qəndab","Dilsiz və Xəzəngül","Minayə","Koroğlunun toqat səfəri", "Əmrah" kimi dastanları, aşıq Ələsgər,Qurbani,Xəstə Qasım,Aşıq Əli, Valeh, Hüseyn Şəmkirli, Hüseyn Bozalqanlının bir çox qoşma, gəraylı, dodaqdəyməz, təcnis, cığaltəcnisvə qıfılbəndlərini əzbər bilirdim".

Həsən Mirzəyevin böyük zəhmətlə topladığı miflərin gözəgörünməz, cin-,əjdəha,hal arvad, hal anası, nuh obrazları ilə bağlılığı vardır. Əfsanələrdə bu toponimləri görürük: Gəlin qayası,-Qısır dağ, Səhənquçartəpə,Ərgəzpiri, Ertişpiri, Salsalqayıcı haqqında əfsanələrdə əksini tapan yer-yurd adlarının xalq yozumu əsasında izahiverilmişdir.

İnamlar, etiqadlar,inanclar maraqlı folklor janrlarıdır. Onların inam janrının janrdaxili dəyişmələr adı ilə verilmişdir. Bunlar prof.Həsən Mirzəyevin folklor-şünaslıq elmi sahəsində apardığı sistemli və ardıcıl araşdırmalarının aydın,uğurlu göstəriciləridir. Araşdırıcının inam və inanc anlayışlarını fərqləndirməsinə haqq qazandırırıq. Folklorun, həmçinin onun haqqında elmi təlimin, folklorşünaslığın bilicisi prof.-Həsən Mirzəyevin folklorşünaslığa aid anlayışların yaxınlığını, ayrılmazlığında göstərmişdir deyəndə, onun həmin anlayışları eyniləşdirməsini nəzərdə tutmuruq. Anlayışların hər biri ayrı-ayrı sözlərlə adlandırılırsa, deməli, nə qədər yaxın, bir-birindən ayrılmaz görünsələrdə eyni ola bilməzlər.

Həsən Mirzəyevin hələ gənc, cavan yaşlarında qərbi Azərbaycanın kənd orta məktəblərində Azərbaycan dili və Ədəbiyyat müəllimi işləyəndə yazdığı məqalələr onun gələcəkdə istedadlı filoloq alim kimi yetişəcəyindən xəbər verirdi. Həm də (Bakı, "Elm" 2006, 660 səh.) seçilmiş elmi məqalələriprof. Həsən Mirzəyevin çox cavan yaşlarından cəsarətli, qorxmaz, doğruluğu sevən olduğu, gələcəkdə böyük, talantlı şəxsiyyət, alim kimi tanınacağı haqqında dolğun təsəvvür yaradır.Eyni zamanda gənclik, cavanlıq yaşlarında yazdığı elmi məqalələrin müxtəlif mətbuat orqanlarında nəşr edilməsi onun fərdi istedadının, uşaqlıqdan çalışqanlığının, elmə, biliyə vurğunluğunun, uzun, mənalı əmək, zəhmət yolu keçdiyinin açıq-aydın göstəricisidir.

Məqalələrindən seçdiyimiz bəzi sətirləri nümunə göstərməyi lazım bilirik. Məsələn, S.Cəfərovun "Azərbaycan dilinin qrammatikası" (V-VI siniflər üçün) dərsliyi haqqında bəzi qeydlər (tənqid və biblioqrafiya) adlı məqaləsinə baxaq:S.Cəfərovun "Azərbaycan dilinin qrammatikası" (V-VI siniflər üçün) dərsliyi müəllimlərə və şagirdlərə xeyli yardım göstərə bilər. Kitabın yeni nəşri sadə, şagirdlərin anlaq səviyyəsinə uyğun yazılmış, tapşırıqlar dolğun, elmi, siyasi, və tərbiyəvi cəhətdən dəyərli mövzu və misallarla tərtib edilmişdir. Lakin kitabda bir sıra mövzular izah edilərkən, ardıcıllıq pozulmuş, sistemsizliyə yol verilmişdir. Məsələn, feilin formaları bəhsində (səh. 91-94) əvvəlcə feilin əmr və xəbər formaları, sonra arada feilin zamanları izah edilmiş və daha sonra feilin başqa formalarının izahı verilmişdirki, buda metodik cəhətdən qüsurlu hesab edilməlidir. Çünki,feilin formalarının arasındakı ardıcıllığın pozulması, şagirdləri çaşdırar, feilin zamanlarını öyrənmədən onun əmr və xəbər formaları, bunların təriflərini şagirdlər ətraflı surətdə qavraya bilməzlər.

19-cu paraqrafda (səh.23) belə bir başlıq yazılmışdır: "Q,K və T ilə bitən sözlər"), Həsən Mirzəyev mövzunu morfologiya bəhsində deyil, fonetika bəhsin-də verməyin daha məqsədəuyğun saydığını bildirir. O, sözdəyişdirici və söz-düzəldici şəkilçilər haqqındada dolaşıq fikirlərə rast gəlindiyini göstərmişdir.

Əməkdar elm xadimi, professor feili sifətin tədqiqi tarixinə aid materialı gözdən keçirib, belə aydın nəticəyə gəlirki, tarixən -ar,-mış,-acaq,-ası,-malı,-köməkçi morfemlərinin feili sifət şəkilçiləri sayıldığını dilçilərin heç biri şübhə etmədiyi halda -dıq,-ar,-maz şəkilçiləri həmişə mübahisəli olmuşdur. Belə düşüncənin daşıyıcısı Qəzənfər Kazımov buna görədə H.Mirzəyevin göstərilən şəkilçilərin yerini önəmli, düzgün göstərməkdən ötrü ikinci bölmədə onların hər birini ayrılıqda gözə çapdırmağı qarşıya məqsəd qoymuş, göstərilən şəkilçilərin mənalarını, funksiyalarını konkret, inandırıcı faktlara söykənərək yoxladığını söyləmiş, burada şəkilçilərin qədim formaları, qohum dillərdə yeri, müasir Azərbaycan ədəbi dilinin söz yaradıcılığında rolu, onların struktur-semantik omonimliyi kimi nəzəri məsələlərin dolğun aydınlaşdırdığı, göstərildiyi deyilmişdir. Görkəmli dilçi alim Həsən Mirzəyevin əslində araşdırdığı morfemlərə yalnız feili sifət şəkilçiləri kimi deyil, onların başqa vəzifələrinədə toxunmuş, adları göstərilən şəkilçilərin omonimliyinə söykənərək, feili sifətin inkişaf yolu haqqında dolğun linqvistik təsəvvür, anlayış yaratmağı bacardığını diqqətə çatdırmışdır.

1989-cu ildə prof. Afaq Qurbanov rektor vəzifəsindən azad ediləndən az keçməmiş həmin vəzifəyə təyin edilmiş, professor Səlvər Aslanovdan xəbərsiz dünyalarını dəyişmiş bəzi dardüşüncəli, paxıl şəxslər tərəfindən prof. Afaq Qurbanovun göstərişi ilə rektorluğa yaxın II mərhələdə elmi katib üçün ayrılmış otağın qapısında elmi katib Yusifov Yusif yazılmış lövhənin çıxardıldığını və otaqdakı Elmi Şuranın sənədləri yazılmış seyfin kabinetdən çıxarılıb dəhlizəqoyulduğunu gördüm. Bu haqda yeni təyin edilmiş rektor, prof. Sərvər Aslanova məlumat vermək üçün rektorluğa gedəndə qəbul otağında prof. Həsən Mirzəyevi gördüm və bunları ona danışıb, vəziyyəti rektora demək istədiyimi bildirəndə, rəhmətlik Həsən müəllim belə hərəkəti özbaşınalıq adlandırıb rektora özünün məlumat verəcəyi üçün mənə



gözləməyi tapşırıb onun yanına daxil oldu. Kabinetdən çıxanda gülə-gülə öz otağında qalıb işləyəcəyim barədə rektorun göstəriş verdiyini mənə dedi. Allah humanist və xeyirxah insan kimi tanınan prof. Həsən Mirzəyevə qəniqəni rəhmət eləsin. O, həmişə yaxşı oxuyan, elmi yaradıcılığa xüsusi həvəsi olan tələbələrə müsbət münasibət göstərərdi. Respublika ali məktəb tələbələrinin dilçilik elmi üzrə elmi konfranslarında çıxışlarıma görə I dərəcəli diploma və ən yaxşı tələbə elmi işinə görə medalına layiq görüldüyüm üçün Həsən müəllimin təşəbbüsü iləşəkilim professor Ə.Dəmirçizadənin rəhbərlik etdiyi "Azərbaycan dilçiliyi" kafedrasının qarşısındakı lövhədən asılmışdır. Rəhmətlik Həsən müəllim əla oxuyan, elmi konfranslarda fəal iştirak edən tələbələrə hörmət bəsləyər, onları elmi işlər yazmağahəvəsləndirərdi.

Çox zəhmətsevər, tanınmış filoloq-dilçi alim, əvəzsiz müəllim, filologiya üzrə elmlər doktoru, əməkdar elm xadimi, professor Qəzənfər Kazımov Mahirə Hüseynovanın, Həsən Mirzəyevin yaradıcılığına həsr etdiyi monoqrafiya fonunda filologiya elmlər doktoru, 87 illik ömrünün 65 ilini yaradıcılıq işləri görmüş, ictimai-siyasi həyatda silinməz iz buraxmış əməkdar elm xadimi, " Şöhrət " ordeni ilə təltif edilməyə layiq bilinmiş Həsən İbrahimoğlu Mirzəyevlə bağlı ürəkaçan xoş sözlər söyləmişdir. Məqalədə haqqında monoqrafiya yazılan şəxsiyyət çoxcəhətli yaradıcılığı araşdırılmağa layiq görkəmli alim kimi dəyərləndirilmişdir. Qəzənfər Kazımovun prof. Həsən Mirzəyev haqqında yazılan kitabın təkcə elmi ictimaiyyət deyil, ümumilikdə oxucular üçün maraqlı olacağına şübhə etmədiyini söyləməsi, "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" kitabında yaradıcılığı araşdırılan, təhlil olunan filoloq alimin Azərbaycanda dilçilik elminin yaradıcıları sayılan nəsildən olması, xüsusilə, Həsən Mirzəyevin daxil edildiyi, 60-cı illərin elmin, ədəbiyyatın, maarifin, incəsənətin, bütün sahələrində milli oyanışın yeni bir erasının başlanğıcını qoymaqla yanaşı, öz sahələri üzrə elmin inkişafına xidmət göstərdiklərini diqqətə yönəltməsi onun (professor Qəzənfər Kazımovun) Həsən Mirzəyevinşəxssiyyətinə böyük hörmət bəslədiyini, yaradıcılığını yüksək dəyərləndirdiyini aydın göstərir.

Professor Qəzənfər Kazımovunfeili sifətin uzun müddət gah feil, gah da sifət bəhsinə daxil edildiyini, 1924-cü ildən 1960-cı ilədək feili sifət şəkilçiləri ilə feildən sifət düzəldən şəkilçilərin birlikdə öyrənildiyini bu sahədə, araşdırmalar artdıqca feili sifət şəkilçilərinin feildən sifət düzəldən şəkilçilər olmadığının müəyyən edilməsi, şəkilçilərin öz yerini tapmasında prof. Həsən Mirzəyevin xüsusi xidmətlər göstərməsindən söhbət açması böyük maraq doğurur.

Prof. Qəzənfər Kazımov Mahirə Hüseynovanın H.Mirzəyevin dilçiliklə bağlı elmi yaradıcılığını araşdıraraq ilk dəfə onun (H.Mizəyevin) feili sifətin tədqiqi sahəsində rolunu açıqladığını, kitabda dilçilik görüşləri araşdırılan aliminfeili si-fətlərləfeildən düzələn sifətlərin 15 fərqini diqqətə çatdırması, feildən düzələn sifətdən fərqlənərək, feili sifətin zaman, təsirlik, növ, inkarlıq, tərz və s. kimi özəllikləri sübuta yetirdiyi, aşkar edə bildiyi deyilir.

Qəzənfər Kazımov Həsən Mirzəyevin Azərbaycan feili sifətlərinin türk dilləri feili sifətləri ilə müqayisəli tədqiqinə haqq qazandırmasını müsbət dəyərləndir-mişdir: "Bunlarsız mövzunun düzgün, elmi dəlillərlə əsaslandırılmış şərhini vermək olmazdı".

1992-ci ildə ADPU-nun elmi katibi idim, əsas korpusun rektorluğun yaxınlığında yerləşən iş otağıma professor Həsən Mirzəyevin daxil olduğunu görəndə ayağa durub onu hörmətlə qarşıladım. Həsən müəllim vacib bir məsələni həll etməkdən ötrü burada yığıncaq keçirmək istədiklərini dedi. Buna görə bir saatlıq başqa otağa keçməyimi xahiş etdi. Mən razılığımı bildirərək iki saat başqa yerdə çalışacağımı söyləyərək otaqdan çıxdım.

Sonra öyrəndim ki, hörmətli Həsən müəllim respublikamızın, xalqımızın vəziyyətinin gündən-günə ağırlaşması, Azərbaycanın sözün əsl mənasında siyasi, mənəvi əziyyətə düşməsi, getdikcə güclənən hakimiyyət böhranı, bir çox dövlət orqanlarının heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərməsi, mövcud iqtidarın ictimai-siyasi gedişatlara tam nəzarət edə bilməməsi ilə bağlı ölkəyə rəhbərlik edəcək həqiqi bir lideri Heydər Əliyevin simasında gördükləri üçün 91 nəfər cəsarətli, qabaqcıl düşüncəli ziyalı rəsmi imzaları ilə onu ölkəyə rəhbərlik etməyə çağırmışlar. 91-lərin içərisində professor Həsən Mirzəyev başda olmaqla Azərbaycan Dövlət Pedaqoji Universitetinim də işçiləri də olmuşdur. Elə həmin səbəbdən də professor Həsən Mirzəyev otaqda keçirilən iclasa rəhbərlik etmişdir. ADPU-nin YAP-ın üzvlərinin iclasında rəhmətlik onun göstərişinə əməl etdiyim üçün haqqımda müsbət sözlər demişdir.

*2023*